

*Fərqanə Mehdiyeva*

## MƏKTUB

Dəyişə bilmədi bu illər məni,
Elə həmənkiyəm sadəlövh, fağır.
Xəbərin oldumu başına dönüm,
Bir dərdə düşmüşəm özümdən ağır.

Sən getdin dünyada nələri gördüm,
Bir qız da doğmadın deyən bacım var.
Nə pula, nə vara, nə də şöhrətə,
Bircə can sözünə ehtiyacım var.

Kimsə yox qapımı özüm tək açan,
Sənsiz yaralarım bitişmir Ana.
Bu kasıb komamda nəyim yoxdu ki,
Başımın sığalı çatışmır Ana.

Boylandım gülümsər şəkillərimdən,
Üşüdüm, darıxdım, sıxıldım Ana.
Hər kəsin dünyada bir düşməni var,
Mən özüm-özümdən yıxıldım Ana.

Bu xəbər ox kimi bağrını dələr,
Çatlayar torpağı, bürünər qəmə.
Bir dəfə ölmüşdü, min dəfə ölər.
Xəstə olduğumu atama demə.
.
Mən də misra-misra qovrulum odda,
Həsrətdən ağaran saçını hörüm.
Ay Ana, yıxılım ayağın altda,
Qoy mən də cənnəti gözümlə görüm.

Dəyişə bilmədi bu illər məni,
Elə həmənkiyəm sadəlövh, fağır.
Xəbərin oldumu başına dönüm,
Bir dərdə düşmüşəm özümdən ağır.

## Bilirsən söz adamıyam

Ay sinəmə dağ çəkənim,
Gəl məni düzlə aldatma.
Yoxsa sənə üz vermişəm,
Üzümü üzlə aldatma.

Donmuşam, yumşaq deyiləm,
Əyilmişəm, şax deyiləm.
Mən daha uşaq deyiləm,
Deyib də "gözlə" aldatma.

Dünyanın düz adamıyam,
Tanrının öz adamıyam.
Bilirsən Söz adamıyam,
Sən məni sözlə aldatma.

Böyümədim uşaq qaldım,
Nə barışdım bu dünyayla,
Nə də bir yol küsdüm anam,
Verdiyin ömrü varağa.

Misra-misra düzdüm anam,
Qaldım necə, öldüm necə.
Axırı gördüm heç-heçə,
Baxdım güzgüyə bir gecə.

Öz-özümü süzdüm, anam,
Gün kimi qara-ağ qaldım.
Dərdin üzünə şax qaldım.
Böyümədim, uşaq qaldım,
O ki var uduzdum, anam.

## Bircə qırıq şirin ola

Yan ötəsən doğmalardan,
Aran bir az sərin ola.
Kaş qayıda gedənlərin,
Nə ola, üzübərin ola...

Nə gördü görmüş bu ömür,
Alnımda tərmiş bu ömür.
Sən demə, zəhərmiş ömür,
Bircə qırıq şirin ola.

Söz gələ udub gedəsən,
Əl ola tutub gedəsən.
Bir yolluq itib gedəsən,
Sığınmağa yerin ola.

## Divardan

Bu dərdi çəkməyə tərəzi yoxdu,
Çəkir ürəyimi izin divardan.
Belə darıxmağın əvəzi yoxdu,
Yazım sətirləri düzüm divardan.

Bu geniş həsrəti dar eləmədi,
Açdı gözlərimi kor eləmədi,
Şəklini asmağa yer eləmədi,
Qoy bir az inciyim, küsüm divardan.

Bu qəm də yetişdi dərən tapılmır,
Uçuq evimizə girən tapılmır.
Səni məndən başqa görən tapılmır,
Niyə boylanırsan bizim divardan.

## SUAL

Hələ nəyimi gördün,
Bu dünyada nəyimi?
Hansı sözümlə çalıb,
Oxudun ürəyimi?

Qəlbində yatdı yoxsa,
Yorğun, düşən hər varaq.
Ötən günümə baxdın?
Biri qara, biri ağ.

Bir söz soruşacaqdım,
Soruşammadım amma.
Şəklimə baxıb dedin,
Belə qəmli dayanma.

Hansı misra süzüldü,
Ürəyindən, canından.
Qoydunmu nidaları,
Ayrılığın yanından.
Qorudunmu bəndləri,
Qapısından çöləcən,
Necə oxudun məni,
Nöqtədən vergüləcən.

Bəlkə bu da bir işdi,
Görüşmədik bir daha.
Necə dözüb dayandın,
Suallar çəkən aha.

Hələ nəyimi gördün,
Bu dünyada nəyimi?
Hansı sözümlə çalıb,
Oxudun ürəyimi?

## İNDİDƏN

O nakam nə yatdı nə yuxu görə,
Bir yuxu görmüşdü yozun indidən
Ağlağan şeirimin sətirlərindən,
Gülümsər şəklini asım indidən.

Deyin biri yoxdu biri var idi,
Yolunda boranı qarı var idi.
Deyin cərgəmizdə yeri var idi,
Tutun qəlbinizdə yasın indidən.

Bir yığım istəyi solar heç olar,
Nə boyda arzusu gedər, köç olar.
Ona nə desəniz sonra gec olar.
Ona nə yazırsız yazın, indidən.

## MƏNİ YAĞIŞDA SAXLA

Çıxaq enişə doğru,
Dur, gəl, yoxuşda saxla.
Aç könlünün qapısın,
Məni çıxışda saxla.

Qışı bizə düşmədi,
Xoşu bizə düşmədi,
Yaşı bizə düşmədi,
Quru baxışda saxla.

O qədər xatirə var,
Gözlərimdi suvarar.
Yaz adımı divara,
Torpaqda daşda saxla.

Ocaq haqqı, od haqqı,
Çəmən haqqı, ot haqqı.
Ayır haqdan nahaqqı,
Ömürdə, yaşda saxla.

Üşüdüki bu ocaq,
Damlalar saçaq-saçaq.
İslanmışın yağışdan,
Nə qorxusu olacaq?
Məni yağışda saxla.

## NİZAMİYƏ HƏYAN GEDİR

**(Mərhum şair Bahadur Fərmanın xatirəsinə)**

Söz üstündə qərar tutub,
Söz qədrin bilən şairlər.
İçindən yanib qovrulub,
Çölündə gülən şairlər.

Yaxşı duyub sonrasını,
Acısını, ağrısını,
Misra boyda daxmasının,
Küncündə qalan şairlər.

Çıx dağına, daşına çıx,
Lap dünyanın başına çıx,
Söz ucundan başıaçıq,
Ayağıyalın şairlər.

Qoydu ümidi ac qoydu,
Sevdasın yalavac qoydu.
Kim başınıza tac qoydu,
Divanə, dəli şairlər?

Əymədi qəddi dünyada,
Göz yumdu, itdi dünyadan.
Kişi tək getdi dünyadan,
Kişi tək gələn şairlər.

Bu dünyada oyun gedir,
Min dərdə qol-boyun gedir,
Nizamiyə həyan gedir,
Gəncədə ölən şairlər.

## 19 FEVRALIN ŞEİRİ

Hansı gün doğuldum elə,
O dad hanı, o tam hanı?
Gəlişimə qurban kəsən,
Anam hanı, atam hanı?

Hanı mənim o xoş çağım,
Hanı qırmızı yaylığım,
Hanı sınıq oyuncağım,
Hanı kövrək uşaqlığım.

Quş qanadlı ötdü günlər,
Şirin hanı, acı hanı?
Yarpağına söz yazdığım,
Hanı tut ağacı hanı.

Ürəyimdə bir sirr qalıb,
Qoy çağırım yarım gəlsin.
Çilingağac oynadığım,
Uşaqlıq dostlarım gəlsin.

Gəlsin gözlərim önünə,
Coşub qaynadığım günlər.
Bilməyib dünya beş gündü,
Beşdaş oynadığım günlər.

Hansı gün doğuldum elə,
O dad hanı, o tam hanı?
Gəlişimə qurban kəsən,
Anam hanı, atam hanı?

## OLMADI

**Hər gün aldadıram anamı, Allah,**
**Hər gün deyirəm ki, yaxşı olacaq.**

**(Əlәmdar Cabbarlıya)**

Sən yaxşı bilirsən qardaş,
Kim-kimə qarşı olmadı.
Bəxtimizə gün düşmədi,
Payızı qışı olmadı.

SÖZÜN şaxdı özün yiyə,
Nə qaldı ki, nə deməyə,
O tərəflərə getməyə,
Dostun, sirdaşın olmadı?

Əridəcək yurd ananı,
Şeirinlə ovut ananı.
Bu il də aldat ananı,
Bu il də yaxşı olmadı.

## SINIQDISA, SIXILIR CAN...

Çiçəklənmir alın yazım,
Xam tapıb mən ağılsızı.
Diri-diri, qıpqırmızı,
Üzümə durub bu ömür.

Elə sanır lalam, karam,
Gözümdə göyərir qoram.
Əyilmirəm, qatlanmıram,
Dizimə durub bu ömür.

Sınıqdısa, sıxılır bu can,
Bitişəcək axır haçan?
Səbrim çatmır axıracan
Gözümə durub bu ömür.

## MÖCÜZƏ

İştahım elə böyüyüb,
Qorxuram ki, gözə gələm.
Qınayan olmaya canım,
Durub indi sizə gələm.

Qəfildən döyəm qapını,
Uşaqların qaçıb aça.
Soruşsalar kimsən gələn,
Handan sənə xəbər çata.

Bir yol da düşəsən işə,
Mən də oyunu bitirəm.
Ürəyin qırılıb düşə,
Əyilib özüm götürəm.